# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Daha bir şəhid dəfn edildi***



*Vətən müharibəsi şəhidi əsgər Balakişiyev Zamin Dadaş oğlu torpağa tapşırılıb.*

*Şəhid Sabirabad rayonunun Qaralar kəndində dəfn edilib.*

*Z.Balakişiyev Vətən müharibəsi zamanı yaralanaraq 5 ay komada qalıb.*

***XTQ leytenantı Dünyamalıyev Ceyhun***



*XTQ leytenantı Dünyamalıyev Ceyhun Zeynal oğlu 15.10.1996-cı ildə Culfa şəhərində anadan olub.*

*2002-ci ildə Culfa şəhəri 2 nömrəli orta məktəbin birinci sinfinə daxill olub. 2011-ci ildən hərb sənətinə yiyələnməkdən ötrü Naxçıvan şəhər Heydər Əliyev adına Hərbi Liseydə təhsil alır, 2014-cü ildə bu məktəbin məzunu olur. "Azərbaycan Ordusunun 100 illiyi" yubileyi medalına layiq görülənlər sırasında Ceyhun Dünyamalıyev də olub. Müharibə başlamamışdan 2 ay qabaq "Zabit qabaqda olar" deyib,könüllü XTQ-ə qoşulub.*

*27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ Savaşına Xüsusi Təyinatlı Qrupda qoşulan Ceyhun, 08 noyabr 2020-ci ildə Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhid olur.*

*Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Dünyamalıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.*

*Ceyhun Dünyamalıyev anadan olduğu Culfa şəhərində dəfn olunub.*

***"Vətən Müharibəsi Qəhrəmanı" Şəhidimiz mayor Bayramov Elburus***




*"Vətən Müharibəsi Qəhrəmanı"Şəhidimiz mayor Bayramov Elburus Eyvaz oğlu 01.12.1986-cı ildə Beyləqan rayonunun Milabad kəndində anadan olub.*

*Mayor Elburus Bayramov 2016-cı ildə baş verən aprel döyüşlərinin iştirakçısı olub. 27 sentyabrda işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elbrus Bayramov oktyabrın 2-də Füzuli döyüşləri zamanı Qərvənd istiqamətində gedən döyüşlərdə qəhrəmanasına Şəhid olub. Şəhidimiz Beyləqan rayonunda dəfn edilib. Şəhidimiz ailəli idi. 2 övladı Vətənə əmanətdir. Mayor Elburus Bayramov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.*

***"Bir gün gələcək, mən sizi Şuşadan salamlayacam", demişdi...***



*Vətən müharibəsində qəhrəmancasına şəhid olan, gülüşü ilə Cənnəti bəzəyən igidimiz. Xocavənd uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı qazi oğlu.18 noyabr tarixində şəhidimizin nəşi Bakıda II Fəxri Xiyabanda torpağa tapşırıldı.*

***Murovdağ silsiləsində şəhidlik zirvəsinə ucalır***



*Budaqov Rufiz Şirzad oğlu 12iyul 1977-ci ildə Ordubad rayon Tivi kəndində dünyay göz açıb. 1984-cü ildə Tivi kənd orta məktəbin birinci sinfinə qədəm qoyan Rufiz 1994-cü ildə məktəbi bitirir.*

*1995-1998-ci illərdə həqiqi hərbi xidmətdə olub. 1998-1999-cu illərdə Tank Komandir məktəbində hərb sənətinə yiyələnir. 1999-cu ildən gizir rütbəsi alan Rufiz 2004-cü ilədək tank komandiri vəzifəsində çalışır. 2004-cü ildə səhhəti ilə əlaqədar təqaüdə göndərilir. İçindəki Vətən sevgisi tam müalicədən sonra 2012-ci ildə Rufizi yenidən hərbiyə geri qaytarır. 2016-cı ilin "Aprel döyüşləri"ndə iştirak edir. "Qüsursuz xidmətlərinə görə" 3-cü və 2-ci dərəcəli medallarla təltif olunub.*

*Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən gizir Budaqov Rufiz ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edilib.*

*İkinci Qarabağ savaşının 3-cü günü - 29 sentyabrda Murovdağ silsiləsində şəhidlik zirvəsinə ucalır, 2 oktyabr 2020-ci il tarixində İkinci Fəxri Xiyabanda dəfn olunub.*

*Ailəli idi. İki qız, bir oğlan övladı var.*

***Əsgər Rzayev Amin***



*Əsgər Rzayev Amin Qurban oğlu 01.01.2000-ci ildə Gədəbəy rayonu, Çobankənd kəndində anadan olub.*

*O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.*